**İş saatları və maaşlar**: ALCO MMC işçilərinə yerli əmək bazarına uyğun rəqabətli maaşlar verir. Maaşlar, iş saatları, əlavə iş saatları, mükafatlar və müavinətlərlə bağlı prosedurlar qüvvədə olan əmək qanunvericiliyinə uyğun şəkildə həyata keçirilir.
İşçilərimizə bilik və bacarıqlarını artırmaq üçün imkanlar yaradılır, potensialına uyğun olaraq onların vəzifədə irəli çəkilməsi təmin edilir.

**Sağlamlıq və əməyin təhlükəsizliyi**: Təhülkəsiz və sağlam iş mühiti yaradaraq qəzaları minimuma endirmək şirkətimizin prioritet məqsədidir.
Şikətimizdə sağlamlıq və əməyin təhülkəsizliyi ilə bağlı yerli qanunvericiliyin və "ISO 45001" beynəlxalq standartının tələblərinə uyğun idarətetmə sistemi tətbiq olunur.

**Maraqlı tərəflərlə əlaqələr**: Şirkətimiz maraqlı tərəflərlə ədalətli və faydalı əlaqələr qurmağı öz öhdəsinə götürür. Biz bütün maraqlı tərəflərə bərabər yanaşırıq.

**Əcnəbilərin işə qəbulu**: "ALCO" MMC-də əcnəbilərin işə qəbulundən işdən azad edilməsinədək bütün proseslər yerli qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir.
Şirkətimizdə əcnəbi işçilərinin əmək hüquqları tam şəkildə qorunur.

**İstirahət günləri və bayramlar:** Həftələrarası istirahət günü (Bazar günü) və iş günü hesab edilməyən bayram günləri "ALCO" MMC-də qeyri-iş günləridir. Qanunvercilikdə müəyyən olunmuş hallarda işçilər bayram və istirahət günləri işə cəlb edilə bilərlər.

**İşə qəbul və məşğulluq**: Sosial uyğunluq tələblərinin dayanıqlığını təmin etmək üçün işə qəbul zamanı işçi seçimində peşə bilikləri qədər şirkət qaydaları və sosial uyğunluq tələbləri ilə uzalaşma da vacib və əhəmiyyətli meyar kimi qəbul edilir.
İşə qəbul mərhələsindən başlayaraq əmək haqqı, performans qiymətləndirilməsi və əmək müqaviləsinin bağlanılması proseslərində ayrseçkiliyin və zorakılığın qarşının alınması ilə bağlı təbdirlər həyata keçirilir.
İşçilərin müntəzəm məşğulluğu və sosial müdafiəsi təmin edilir.

**Əmək müqaviləsi:** "ALCO" MMC-də işə qəbul edilən hər bir işçi ilə əmək qanunvericiliyinə uyğun olaraq rəsmi əmək müqaviləsi bağlanılır.

**Nizam-intizam:** Şirkət daxilində nizam-intizamın tımin edilməsi və işində nöqsanalara yol verən işçilərə qarşı intizam tənbehi tədbirlərinin tətbiq edilməsi "Daxili İntizam Qaydaları"na əsasən həyata keçirilir.

AMINOL

# SOSİAL UYĞUNLUQ SİYASƏTİ

**"ALCO" MMC** olaraq Sosial Uyğunluq Siyasətimizi şirkət mədəniyyətinə çevirmək niyyətindəyik. Sosial Uyğunluq Siyasətimiz şirkətimizin təməl prinsip və dəyərlərinə əsaslanır.

Şirkətimiz uyğunluq standartları əsasında məhsul istehsal etməklə yanaşı, işçilərin bütün qanuni hüquqlarını təmin etməyi, ətraf mühitə həssas yanaşmağı, əməyin təhlükəsizliyi qaydalarına riayət etməyi, işçilər arasında dürüstlük və açıq ünsiyyətin hakim olduğu, onların hörmət və dəyər gördüyü iş mühiti formalaşdırmağı öz öhdəsinə götürür.

"ALCO" MMC sosial uyğunluq siyasətini müxtəlif kommunikasiya kanalları vasitəsilə işçilərinə çatdırır. Eyni zamanda, təchizatçılara da bu siyasət barədə məlumat verilir və onların bu siyasətlə müəyyənləşdirilən kriteriyalara uyğun olaraq qiymətləndirməsinə xüsusi diqqət yetirilir.

**Sosial uyğunluq siyasətimiz aşağıdakıları özündə ehtiva edir:**

**Məcburi əməyin qarşısının alınması**: "ALCO" MMC-də heç kəs məburi əməyə cəlb edilə bilməz. Şirkətimizdə iş könüllülük prinsipləri əsasında qurulub. İşçi əmək qanunvericiliyi ilə müəyyənləşdirilmiş qaydada şirkəti öncədən məlumatlandırmaqla istənilən vaxt işdən çıxa bilər. İşçilərin bütün şəxsi məlumatları şirkət tərəfindən qorunur və qanunla müəyyən edilmiş formada onların məxfiliyi təmin edilir.

**Uşaq işçiliyi ilə mübarizə**: "ALCO" MMC-də heç bir şəkildə uşaq əməyindən istifadəyə yol verilmir. İşçilər işə qəbul edilərkən əmək qanunvericiliyi ilə müəyyənləşdirilən yaş həddinə diqqət yetirilir. Şirkətimiz Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq yaşı 15-dən az olan şəxsləri işə qəbul etməməyi və uşaq işçiliyi ilə mübarizə aparmağı öz öhdəsinə götürür.

**Ayrıseçkiliyin qarşısının alınması:** "ALCO" MMC-də irqindən, etnik mənsubiyyətindən, dinindən, dilindən, cinsindən, sosial mənşəyindən, ailə vəziyyətindən, yaşayış yerindən, əqidəsindən, həmkarlar ittifaqlarına və ya ictimai birliklərə mənsubiyyətindən, əmlak və qulluq mövqeyindən, habelə işçinin xidməti fəaliyyətinə aid olmayan başqa səbəblərdən asılı olmayaraq işçilərin hüquq bərabərliyi təmin olunur.

**Etik davranış**: "ALCO" MMC fəaliyyətində rəhbər tutduğu qanun və qaydalara riayət etməyi, şəffaflığı qorumağı, korrupsiya və rüşvətxorluğun bütün formaları ilə sərt şəkildə mübarizə apamağı öz öhdəsinə götürür.

Şirkətimizdə qanunsuz güzşət və ya imtiyazlar əldə etmək, o cümlədən işgüzar münasibətləri asanlaşdırmaq məqsədilə rüşvət və ya hədiyyələr alınıb-verilməyəcəkdir.

Şirkətimiz korrupsiya və rüşvətxorluqla mübarizə, maraqların toqquşmasının qarşısını almaq və biznes tərəfdaşlarının əqli mülkiyyət hüquqlarını qorumaq üçün lazım olan mexanizm və siyasətləri formalaşdıracaqdır.

**SOSİAL UYĞUNLUQ SİYASƏTİ**

**Təşkilatlanma və təmsil olunma azadlığı, kollektiv müqavilə hüququna hörmət**: "ALCO" işçilərinin sindikata üzv olma, kollektiv müqavilə bağlama və nümayəndələri vasitəsilə azad, demokratik şəkildə təmsil olunma hüququna hörmətlə yanaşır.

**İşçilərin maarifləndirilməsi**: Sosial uyğunluğun özülünü məlumatlı işçilərin formalaşdırdığını nəzərə alaraq, işə qəbul mərhələsində və iş həyatının müəyyən dövrlərində işçilər sosial uyğunluq tələbləri haqqında məlumatlandırılır.

**Təklif və şikayətlərinin bildirilməsi**: Hər bir işçi təklif və şikayətlərini açıq şəkildə bildirə bilər. Bütün təşklif və şirkayətlərə vaxtında baxılır. Onlar yuxarı rəhbərlik tərəfindən dəyərləndirilir.
Təklif və ya şikayətinə görə heç bir işçiyə cəza tətbiq oluna bilməz.

**Təchizat zənciri idarəçiliyi**: Təchizatçı şirkətlərdən, sub-podratçılardan və biznes tərəfdaşlarından sosial uyğunluğa dair öhdəlik götürmələri tələb olunur. Onların hər biri sosial uyğunluq baxımından qiymətləndirilir. Qiymətləndirmənin nəticələrinə əsasən həyata keçirilən tədbirlər izlənilir və sosial uyğunluq səviyyələri davamlı şəkildə təkmilləşdirilir.

**Qanunlara riayət olunması və digər öhdəliklərin yerinə yetirilməsi**: Biz mövcud yerli qanun və qaydalara, sosial məsuliyyət standartlaırna və beynəlxalq normalara uyğun şəkildə fəaliyyət göstəririk.

**Ətraf mühitin qorunması**: "ALCO" MMC bütün fəaliyyətlərində ətraf mühitə xüsusi həssaslıqla yanaşır. Ətraf mühitə təsirləri minimuma endirmək və təbii ehtiyatlardan daha səmərəli şəkildə istifadə etmək üçün şirkətimizdə müntəzəm təkmilləşdirmə işləri aparılır.

Bu siyasətin davamlı şəkildə tətbiq edilə bilməsi üçün ildə ən azı bir dəfə ona rəhbərlik tərəfindən yenidən baxılacaqdır.

**Baş direktor**
Dunay XASAYLI

**Tarix:**
01.07.2024

AZƏRBAYCAN RESPUBLİKASI MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ ALCO LIMITED LIABILITY COMPANY AZERBAIJAN REPUBLIC